**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 267/5** **20 oktyabr 2015-ci il**

**“Fəxri auditor” döş nişanı və onun vəsiqəsinin və**
**“Fəxri fərman”ın eskizinin layihəsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 26 may tarixli 263/1 saylı “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasında auditin inkişafında və auditor peşəsinin nüfuzunun yüksəldilməsində xüsusi xidmətləri olan, Auditorlar Palatasının ictimai həyatında və fəaliyyətinin genişləndirilməsində, beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynayan şəxslərin mənəvi həvəsləndirilməsi məqsədilə, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış “Fəxri auditor” döş nişanı və onun vəsiqəsinin və “Fəxri fərman”ın eskizinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) və Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış “Fəxri auditor” döş nişanı (iki variantda) və onun vəsiqəsinin, “Fəxri fərman”ın eskizləri Şura İclasında qeyd edilən irad və təkliflər nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur).
2. Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov, N.İsmayılov) tapşırılsın ki, “Fəxri auditor” döş nişanından və “Fəxri fərman”dan ilkin olaraq 50 (əlli) ədəd sifariş versinlər.
3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikasında auditin inkişafında və auditor peşəsinin nüfuzunun yüksəldilməsində xüsusi xidmətləri olan, Auditorlar Palatasının ictimai həyatında və fəaliyyətinin genişləndirilməsində, beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynayan şəxslərin mənəvi həvəsləndirilməsini təmin etsin.
4. Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**